https://doi.org/10.59849/3006-1342.2026.2.47
UOT 94

*Səlimə Sabir qızı Quliyeva*
*Bakı Dövlət Universiteti*
*Tarix üzrə fəlsəfə doktoru*
*E-mail:* *quliyeva_salima@mail.ru*
*ORCID ID:* *0000-0002-3054-758X*

# AZƏRBAYCAN–FRANSA ARASINDA TİCARƏT-İQTİSADİ ƏMƏKDAŞLIĞIN İNKİŞAFI (1991–2001)

*Məqalə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra (XX əsrin sonu) Azərbaycan ilə Fransa arasındakı münasibətlərin formalaşması və inkişaf mərhələlərini təhlil edir. Xüsusi diqqət 1991–2001-ci illərə ayrılır. Bu dövrdə iki ölkə arasında diplomatik əlaqələrin qurulması, yüksək səviyyəli qarşılıqlı səfərlər, sənaye və ticarət sahəsində əməkdaşlıq təşəbbüsləri, fransız şirkətlərinin Azərbaycan bazarına göstərdiyi artan maraq, habelə enerji sektorunda imzalanan mühüm sazişlərin rolu araşdırılır.*

*Müəllif qeyd edir ki, Azərbaycan-Fransa münasibətləri tarixi, geosiyasi və iqtisadi amillərin güclü təsiri altında formalaşmışdır. 1990-cı illərin ortalarından etibarən bu münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Məqalədə hər iki ölkə arasında siyasi dialoqun inkişafı, dövlət başçıları və hökumət nümayəndələrinin qarşılıqlı səfərləri, hüquqi bazanın yaradılması və iqtisadi əməkdaşlığın genişləndirilməsi prosesi ətraflı şəkildə təhlil olunur.*

*Xüsusi vurğulanır ki, enerji sektoru ikitərəfli əlaqələrin ən dinamik və strateji sahəsinə çevrilmişdir. "Əsrin müqaviləsi"nin imzalanmasından sonra fransız neft-qaz şirkətləri (Total, Elf Aquitaine və s.) Azərbaycanın neft və qaz yataqlarının işlənməsində fəal iştirak etmişlər. Bu əməkdaşlıq yalnız enerji sektoru ilə məhdudlaşmayıb, nəqliyyat, kənd təsərrüfatı, mədəniyyət, təhsil və humanitar sahələrə də yayılmışdır.*

*Məqalədə həmçinin ticarət dövriyyəsinin dinamikası statistik məlumatlar əsasında araşdırılır. 1990-cı illərin əvvəllərində aşağı səviyyədə olan ticarət həcmi 2000-ci illərin əvvəllərində xeyli artmış, bu isə fransız investisiyalarının Azərbaycan iqtisadiyyatına daxil olmasını və qarşılıqlı maraqların güclənməsini əks etdirir.*

*Nəticədə müəllif belə qənaətə gəlir ki, Azərbaycan-Fransa münasibətləri 1991–2001-ci illər ərzində intensiv inkişaf yolu keçmiş, siyasi, iqtisadi və mədəni sahələrdə möhkəm əsaslar yaratmışdır. Bu münasibətlər hər iki ölkənin strateji maraqlarına cavab verir və Avropada və Cənubi Qafqaz regionunda sabitlik və əməkdaşlığın gücləndirilməsinə xidmət edir.*

*Açar sözlər:* Azərbaycan, Fransa, diplomatik münasibətlər, ticarət-iqtisadi əməkdaşlıq, Heydər Əliyev, Şahdəniz, xarici siyasət, investisiya

## *Giriş*

XX əsrin sonlarında SSRİ-nin süqutu nəticəsində 1991-ci il 18 oktyabr tarixində Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etməsi ölkənin xarici siyasət kursunda keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoydu. Bu dövrdə Azərbaycan beynəlxalq münasibətlər sistemində öz yerini müəyyənləşdirməyə, siyasi suverenliyini möhkəmləndirməyə və iqtisadi müstəqilliyini təmin etməyə çalışırdı. Xüsusilə postsovet məkanında yaranmış geosiyasi boşluq şəraitində ölkənin qarşısında duran əsas vəzifələrdən biri beynəlxalq təşkilatlara inteqrasiya, aparıcı dövlətlərlə ikitərəfli münasibətlərin qurulması və çoxşaxəli diplomatiyanın formalaşdırılması idi. Müstəqil dövlət kimi Azərbaycanın xarici

siyasətində Avropa istiqaməti mühüm yer tuturdu. Bu çərçivədə Fransa ilə münasibətlərin qurulması xüsusi əhəmiyyət kəsb edirdi. Fransa həm Avropa İttifaqının aparıcı üzvlərindən biri, həm də beynəlxalq münasibətlər sistemində siyasi nüfuza malik dövlət kimi Azərbaycan üçün strateji tərəfdaş potensialına sahib idi. Bundan əlavə, Fransanın ATƏT çərçivəsində, xüsusilə ATƏT-in Minsk qrupundakı rolu Azərbaycan üçün bu ölkə ilə münasibətlərin inkişafını daha da aktuallaşdırırdı.

Fransa Respublikası Azərbaycanın dövlət müstəqilliyini 3 yanvar 1992-ci ildə tanımış, həmin ilin 21 fevral tarixində isə iki ölkə arasında diplomatik münasibətlər rəsmən qurulmuşdur. Bu hadisə Azərbaycan–Fransa əlaqələrinin institusional əsasını formalaşdırmış və sonrakı mərhələlərdə əməkdaşlığın genişləndirilməsi üçün möhkəm siyasi-hüquqi zəmin yaratmışdır. Diplomatik münasibətlərin qurulmasından sonra hər iki ölkədə səfirliklərin açılması, qarşılıqlı rəsmi səfərlərin təşkili və hökumətlərarası müqavilələrin imzalanması bu əlaqələrin sistemli inkişafına təkan vermişdir [9, s. 53].

1990-cı illərin ortalarından etibarən Azərbaycan–Fransa münasibətləri tədricən çoxşaxəli xarakter almağa başlamışdır. Siyasi dialoqla yanaşı, iqtisadi əməkdaşlıq, enerji sahəsində tərəfdaşlıq, mədəni və humanitar əlaqələr də inkişaf etdirilmişdir. Xüsusilə Azərbaycanın zəngin enerji ehtiyatlarının dünya bazarına çıxarılması prosesində Fransa şirkətlərinin iştirakı bu münasibətlərin iqtisadi komponentini gücləndirmişdir. Bununla yanaşı, təhsil, mədəniyyət və elmi sahələrdə əməkdaşlıq da iki ölkə arasında qarşılıqlı anlaşmanın dərinləşməsinə xidmət etmişdir. Beləliklə, Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından sonra Fransa ilə qurulan münasibətlər yalnız diplomatik əlaqələrin yaradılması ilə məhdudlaşmamış, zaman keçdikcə siyasi, iqtisadi və mədəni sahələri əhatə edən kompleks əməkdaşlıq modelinə çevrilmişdir. Bu münasibətlər həm Azərbaycanın Avropa ilə inteqrasiya siyasətində, həm də ümumilikdə beynəlxalq mövqeyinin möhkəmləndirilməsində mühüm rol oynamışdır.

**Tarixi və geosiyasi amillər**

Azərbaycan ilə Fransa arasında münasibətlərin formalaşmasına təsir göstərən amillər sırasında tarixi və geosiyasi faktorlar xüsusi yer tutur. Əlverişli geosiyasi və geoiqtisadi mövqedə yerləşən Azərbaycan tarix boyu Şərqlə Qərb arasında körpü rolunu oynamışdır. Onun İpək Yolu üzərində yerləşməsi, zəngin təbii ehtiyatlara malik olması və Avropa ilə Asiyanı birləşdirən strateji coğrafi mövqeyi Avropa dövlətlərinin daim diqqət mərkəzində olmuşdur. Bu xüsusiyyətlər Azərbaycanın yalnız regional deyil, həm də qlobal iqtisadi və siyasi proseslərdə mühüm iştirakçıya çevrilməsinə şərait yaratmışdır.

Orta əsrlərdə Avropa dövlətlərinin Şərqə marağı əsasən iqtisadi və dini motivlərlə izah edilirdi. Xüsusilə Səlib yürüşləri formal olaraq dini şüarlarla pərdələnsə də, onların arxasında genişlənmə siyasəti, ticarət yollarına nəzarət və iqtisadi resurslara çıxış kimi strateji məqsədlər dayanırdı. Bu proseslərdə Fransa ərazisində mövcud olmuş feodal dövlətlərinin maraqları da mühüm rol oynamışdır. Fransa zadəganları və kilsə dairələri Şərqə yönəlmiş ekspedisiyalarda fəal iştirak edərək həm dini nüfuzlarını artırmağa, həm də yeni iqtisadi imkanlar əldə etməyə çalışırdılar.

XIII əsrdə Osmanlı dövlətinin meydana çıxması Avropa dövlətlərinin Şərq siyasətində yeni mərhələnin başlanmasına səbəb olmuşdur. Qısa müddətdə güclənən Osmanlı imperiyası Şərq–Qərb ticarət yollarına nəzarəti ələ keçirərək Avropa dövlətlərinin maraqlarına ciddi təsir göstərdi. Bu vəziyyət Avropa ölkələrini alternativ siyasi və hərbi ittifaqlar axtarmağa sövq etdi. Nəticədə region dövlətləri ilə münasibətlərdə, o cümlədən gələcəkdə Fransanın siyasətində, Osmanlıya qarşı balans yaratmaq məqsədilə müxtəlif diplomatik və strateji yanaşmalar formalaşdı [10, s. 48-50]. Bu kontekstdə Cənubi Qafqaz regionu, xüsusilə Azərbaycan əraziləri, Avropa dövlətlərinin diqqətində qalmaqda davam edirdi. Regionun ticarət və tranzit potensialı, həmçinin siyasi-strateji mövqeyi onu beynəlxalq rəqabətin

mühüm obyektinə çevirmişdir. Bu tarixi irs sonrakı dövrlərdə də öz təsirini saxlamış, xüsusilə XX əsrin sonlarında müstəqil Azərbaycan Respublikası ilə Fransa arasında münasibətlərin qurulmasında geosiyasi amillər həlledici rol oynamışdır.

Beləliklə, Azərbaycan–Fransa münasibətlərinin formalaşması təkcə müasir dövrün siyasi reallıqları ilə deyil, eyni zamanda əsrlər boyu formalaşmış tarixi təcrübə, ticarət əlaqələri və geosiyasi maraqların məntiqi davamı kimi qiymətləndirilməlidir. Bu baxımdan, müasir əməkdaşlıq modeli dərin tarixi köklərə əsaslanmaqla yanaşı, qlobal və regional güc balansının dəyişən şərtləri çərçivəsində inkişaf etməkdədir.

**Sovet dövründə iqtisadi əlaqələrin xüsusiyyətləri**

Azərbaycan SSR dövründə Fransa ilə birbaşa dövlətlərarası münasibətlər formal olaraq mövcud olmasa da, bu, tərəflər arasında heç bir əlaqənin olmaması demək deyildi. Əksinə, həmin dövrdə bütün xarici iqtisadi və siyasi əlaqələr SSRİ-nin mərkəzi hakimiyyəti vasitəsilə tənzimləndiyi üçün Azərbaycan yalnız ittifaq daxilində müəyyən funksional rol oynayırdı. Bu baxımdan, Fransa ilə iqtisadi əlaqələr də birbaşa deyil, Moskvanın koordinasiyası ilə həyata keçirilirdi və Azərbaycan SSR bu prosesdə əsasən istehsal və sənaye bazası kimi iştirak edirdi.

1970–1990-cı illər ərzində SSRİ ilə Fransa arasında iqtisadi və texnoloji əməkdaşlığın genişlənməsi Azərbaycan SSR-ə də müəyyən dərəcədə təsir göstərmişdir. Bu dövrdə Fransadan Bakıya müxtəlif iqtisadi və texniki nümayəndə heyətlərinin səfərləri təşkil olunmuş, eyni zamanda Azərbaycan mütəxəssisləri də ittifaq hökumətinin nəzarəti altında Fransada keçirilən sərgilərdə, forumlarda və sənaye yönümlü tədbirlərdə iştirak etmişlər. Bu qarşılıqlı səfərlər əsasən təcrübə mübadiləsi, texnologiyaların öyrənilməsi və sənaye sahəsində əməkdaşlıq imkanlarının araşdırılması məqsədi daşıyırdı.

Xüsusilə 1980-ci illər bu əlaqələrin daha konkret iqtisadi məzmun kəsb etdiyi mərhələ kimi diqqəti cəlb edir. Fransadan Azərbaycan SSR-ə sənaye avadanlıqlarının idxalı həmin dövrdə respublikanın sənaye potensialının artırılmasına xidmət etmişdir. 1981-ci ildə Azneft üçün müasir soyuducu qurğuların gətirilməsi neft hasilatı prosesində texniki səmərəliliyin yüksəldilməsinə imkan yaratmışdır. Bununla yanaşı, Xəzər dənizində neft hasilatının inkişafı məqsədilə fəaliyyət göstərən Dərin Özüllər zavodu üçün platforma tikintisində istifadə olunan avadanlıqların idxalı da mühüm əhəmiyyət kəsb edirdi. Eyni dövrdə Sumqayıt Kimya Birliyi üçün iri həcmli sənaye texnikasının gətirilməsi kimya sənayesinin inkişafına və istehsal gücünün artırılmasına şərait yaratmışdır. Bu faktlar göstərir ki, Fransa texnologiyası və sənaye avadanlıqları Azərbaycan SSR-in iqtisadi infrastrukturunun modernləşdirilməsində müəyyən rol oynamışdır [4, c.7, s. 218].

Bununla belə, qeyd etmək vacibdir ki, bu əlaqələr klassik mənada ikitərəfli dövlətlərarası münasibətlər kimi qiymətləndirilə bilməz. Onlar daha çox SSRİ çərçivəsində həyata keçirilən ümumittifaq iqtisadi əməkdaşlıq siyasətinin tərkib hissəsi idi və Azərbaycan SSR bu münasibətlərdə müstəqil qərarvermə imkanına malik deyildi. Məhz bu səbəbdən 1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan–Fransa münasibətləri keyfiyyətcə yeni məzmun qazanmış, artıq birbaşa və suveren dövlətlərarası əməkdaşlıq müstəvisində inkişaf etməyə başlamışdır.

**Müstəqillikdən sonra siyasi və iqtisadi əməkdaşlığın inkişafı**

1991-ci ildən sonra Azərbaycan Respublikasının xarici iqtisadi siyasəti müstəqil şəkildə formalaşdırılmağa başladı və bu proses ölkənin beynəlxalq iqtisadi sistemə inteqrasiyası baxımından həlledici əhəmiyyət kəsb etdi. Bu mərhələdə Prezident Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik və balanslaşdırılmış xarici siyasət kursu çərçivəsində Avropa dövlətləri ilə, xüsusilə Fransa ilə əlaqələrin inkişafına xüsusi önəm verilirdi. Dövlət başçısının Fransaya ilk rəsmi səfəri zamanı imzalanan sənədlər iki ölkə arasında siyasi

dialoqun institusional əsaslarını möhkəmləndirmiş, eyni zamanda ticarət-iqtisadi əməkdaşlığın genişlənməsi üçün real imkanlar yaratmışdır.

Bu dövrdə Fransanın işgüzar dairələri Azərbaycan bazarının potensialı, ölkədə həyata keçirilən iqtisadi islahatlar və xarici investisiyalar üçün yaradılmış əlverişli şərait barədə birbaşa məlumat əldə etmişlər. Azərbaycanın zəngin enerji ehtiyatları, tranzit imkanları və liberal iqtisadi siyasəti Fransa sahibkarları üçün cəlbedici amillər kimi çıxış edirdi. Aparılan görüşlər və təqdimatlar nəticəsində Fransa biznes strukturlarının Azərbaycana marağı nəzərəçarpacaq dərəcədə artmış, konkret investisiya təşəbbüsləri və əməkdaşlıq layihələri gündəmə gətirilmişdir.

1994-cü ilin fevralında Renault şirkətinin MDB və Avropa–Asiya regionu üzrə direktoru Jak Jübyenin Azərbaycana səfəri bu baxımdan mühüm hadisə kimi qiymətləndirilir. Səfər çərçivəsində "Renault" markalı avtomobillərin Azərbaycan bazarında satış perspektivləri müzakirə olunmuş, həmçinin şirkətin ölkədə rəsmi nümayəndəliyinin açılması imkanları nəzərdən keçirilmişdir [1, s. 40]. Bu müzakirələr Azərbaycanın avtomobil bazarının formalaşmaqda olan potensialını və xarici istehsalçılar üçün açıq olduğunu göstərirdi.

Eyni ildə Fransanın aparıcı sənaye şirkətlərindən biri olan Spie Batignollesin prezidenti B. Renyenin Azərbaycana səfəri də iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafında mühüm addım olmuşdur. Böyük işçi qüvvəsinə və yüksək maliyyə dövriyyəsinə malik bu şirkətin Azərbaycana maraq göstərməsi ölkənin investisiya mühitinin beynəlxalq səviyyədə cəlbedici olduğunu təsdiqləyirdi [8]. Görüşlər zamanı Fransa–Azərbaycan Sənaye və Ticarət Palatasının yaradılması, həmçinin Fransa sahibkarlarının milli strukturları çərçivəsində "Azərbaycana dəstək qrupu"nun formalaşdırılması təşəbbüsü irəli sürülmüşdür.

Prezident Heydər Əliyev bu təşəbbüsləri yüksək qiymətləndirərək onların həyata keçirilməsinə dəstək vermişdir. Bu yanaşma Azərbaycan hökumətinin xarici investorlara açıq siyasətinin və beynəlxalq iqtisadi əməkdaşlığa verdiyi önəmin bariz nümunəsi idi. Nəticə etibarilə, 1990-cı illərin ortalarından etibarən Azərbaycan–Fransa iqtisadi münasibətləri tədricən institusional çərçivəyə salınmış və uzunmüddətli tərəfdaşlıq istiqamətində inkişaf etməyə başlamışdır.

**Ticarət dövriyyəsinin artım dinamikası**

Beynəlxalq ticarət dövlətlərin xarici iqtisadi münasibətlər sisteminin mühüm tərkib hissəsi olmaqla, ölkələr arasında mal və xidmət mübadiləsinin təşkili və tənzimlənməsi mexanizmini ifadə edir. Müasir qlobal iqtisadi mühitdə bu proses yalnız iqtisadi deyil, eyni zamanda sosial və institusional məsələlərin həllinə təsir göstərən çoxşaxəli fəaliyyət sahəsi kimi çıxış edir. Xüsusilə qloballaşma şəraitində ticarət əlaqələrinin genişlənməsi dövlətlər arasında qarşılıqlı asılılığı artırır, iqtisadi inkişafın sürətlənməsinə və yeni bazarların formalaşmasına şərait yaradır. Beynəlxalq mübadilənin effektiv şəkildə reallaşdırılması üçün hüquqi-normativ bazanın təkmilləşdirilməsi, maliyyə mexanizmlərinin uyğunlaşdırılması və nəqliyyat-logistika infrastrukturunun inkişaf etdirilməsi zəruri hesab olunur [7, s. 87].

Bu ümumi tendensiyalar fonunda Azərbaycan ilə Fransa arasında ticarət-iqtisadi əlaqələrin institusional əsaslarının yaradılması xüsusi əhəmiyyət kəsb etmişdir. 1996-cı ildə Fransa–Azərbaycan Ticarət-Sənaye Palatasının yaradılması təşəbbüsünün dəstəklənməsi iki ölkə arasında işgüzar əlaqələrin koordinasiyasını gücləndirmiş, sahibkarlar arasında birbaşa əlaqələrin qurulmasına və investisiya mühitinin daha da əlverişli hala gətirilməsinə təkan vermişdir. Bu qurum həm də qarşılıqlı iqtisadi maraqların uzlaşdırılması, biznes mühitinin təbliği və yeni əməkdaşlıq layihələrinin təşviqi baxımından mühüm platforma rolunu oynamışdır.

Statistik göstəricilər bu institusional addımların real iqtisadi nəticələrini aydın şəkildə əks etdirir. Belə ki, 1996-cı ildə Fransadan Azərbaycana ixracın həcmi təxminən 10 milyon ABŞ dolları təşkil etdiyi halda, artıq 1997-ci ildə bu göstərici 18–19 milyon ABŞ dollarına

yüksəlmişdir. Sonrakı illərdə də artım dinamikası davam etmiş və 2001-ci ildə bu rəqəm 20 milyon ABŞ dollarını keçmişdir [2; 6]. Bu artım, ilk növbədə, Fransa şirkətlərinin Azərbaycan bazarında fəallaşması, sənaye, tikinti və xidmət sahələrində əməkdaşlığın genişlənməsi ilə izah olunur.

Eyni zamanda Azərbaycanın Fransaya ixracı da əhəmiyyətli dərəcədə artmışdır. 1999-cu ildə bu göstərici 70–80 milyon ABŞ dolları civarında olmuş, 2000-ci ildə isə təxminən iki dəfə artaraq 150–160 milyon ABŞ dollarına yüksəlmişdir [3]. Bu kəskin artımın əsas səbəblərindən biri enerji sektorunda əməkdaşlığın genişlənməsi, xüsusilə neft və neft məhsullarının Avropa bazarlarına çıxarılması ilə bağlı idi. Azərbaycanın zəngin karbohidrogen ehtiyatları və onların beynəlxalq bazarlara nəqli üçün yaradılmış infrastruktur ölkənin ixrac potensialını artırmış, Fransa isə bu prosesdə həm istehlakçı, həm də investor kimi mühüm rol oynamışdır.

Beləliklə, 1990-cı illərin sonu – 2000-ci illərin əvvəllərində Azərbaycan–Fransa ticarət əlaqələrinin inkişafı həm institusional təşəbbüslər, həm də real iqtisadi əməkdaşlıq layihələri ilə müşayiət olunmuşdur. Bu proses iki ölkə arasında iqtisadi inteqrasiyanın dərinləşməsinə, qarşılıqlı ticarət dövriyyəsinin artmasına və uzunmüddətli tərəfdaşlıq münasibətlərinin formalaşmasına zəmin yaratmışdır.

**Enerji sektorunda əməkdaşlıq və "Şahdəniz" layihəsi**

Enerji sahəsi Azərbaycan–Fransa münasibətlərində strateji istiqamət kimi çıxış edirdi və iki ölkə arasında iqtisadi əməkdaşlığın əsas dayaqlarından birinə çevrilmişdir. Xüsusilə Şahdəniz qaz yatağının işlənilməsi üzrə imzalanmış müqavilə bu əməkdaşlığın institusional və praktiki əsaslarını formalaşdırmışdır. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən bu yataq zəngin qaz ehtiyatları ilə seçilərək ölkənin enerji potensialının beynəlxalq bazarlara çıxarılmasında mühüm rol oynamışdır [5, c. 7, s. 384].

Fransanın Elf-Aquitaine şirkəti ilə SOCAR arasında imzalanmış saziş iki ölkə arasında iqtisadi münasibətlərin keyfiyyətcə yeni mərhələyə keçidini təmin etmişdir. Bu əməkdaşlıq yalnız investisiya və texnologiya transferi baxımından deyil, həm də uzunmüddətli enerji tərəfdaşlığının qurulması nöqteyi-nəzərindən xüsusi əhəmiyyət daşıyırdı. Fransız şirkətlərinin Azərbaycanın enerji sektoruna cəlb olunması ölkənin beynəlxalq enerji layihələrində iştirakını genişləndirmiş və onun qlobal enerji bazarındakı mövqeyini möhkəmləndirmişdir.

1996-cı ilin avqustunda Fransanın Azərbaycandakı səfiri Jan Pyer Ginyutun etimadnaməsinin təqdim olunması mərasimində Prezident Heydər Əliyev "Şahdəniz" yatağı üzrə əməkdaşlığın əhəmiyyətini xüsusi vurğulamışdır. O, həmçinin Jacques Chirac ilə aparılan danışıqların və qarşılıqlı diplomatik yazışmaların iki ölkə arasında münasibətlərin inkişafı üçün möhkəm siyasi əsas yaratdığını qeyd etmişdir. Bu, enerji əməkdaşlığının yüksək səviyyəli siyasi dəstək fonunda inkişaf etdiyini göstərir.

Enerji layihələri təkcə iqtisadi baxımdan deyil, həm də siyasi və geostrateji aspektdən mühüm əhəmiyyət daşıyırdı. Bu əməkdaşlıq nəticəsində Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm tərəfdaşa çevrilmiş, alternativ enerji marşrutlarının formalaşdırılmasında fəal rol oynamışdır. Eyni zamanda Fransa şirkətlərinin regiondakı mövqeləri güclənmiş, onların Cənubi Qafqaz və Xəzər hövzəsində iştirak imkanları genişlənmişdir.

Beləliklə, enerji sektoru Azərbaycan–Fransa münasibətlərində yalnız iqtisadi əməkdaşlıq sahəsi kimi deyil, həm də strateji tərəfdaşlığın formalaşdığı əsas platforma kimi çıxış etmiş, iki ölkə arasında qarşılıqlı maraqlara əsaslanan uzunmüddətli əlaqələrin inkişafını təmin etmişdir.

*Nəticə*

1991–2001-ci illər Azərbaycan Respublikası ilə Fransa arasında münasibətlərin formalaşması və institusional əsaslarının yaradılması dövrü kimi xarakterizə oluna bilər. Bu mərhələdə diplomatik münasibətlərin qurulması, yüksək səviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsi, həmçinin iqtisadi əməkdaşlığın hüquqi bazasının yaradılması ikitərəfli əlaqələrin sistemli və davamlı inkişafına zəmin yaratmışdır. Sənaye və enerji sektorunda əməkdaşlığın genişlənməsi, eləcə də ticarət dövriyyəsinin dinamik artımı iki ölkə arasında münasibətlərin artıq strateji xarakter aldığını nümayiş etdirmişdir.

Bu münasibətlərin formalaşmasında tarixi və geosiyasi amillər mühüm rol oynamışdır. Azərbaycanın zəngin enerji resursları, əlverişli coğrafi mövqeyi və Avropa ilə Asiyanı birləşdirən tranzit imkanları Fransa üçün xüsusi maraq doğurmuşdur. Eyni zamanda Fransa şirkətlərinin regiona artan marağı və hər iki ölkə rəhbərliyinin nümayiş etdirdiyi siyasi iradə əməkdaşlığın dərinləşməsinin əsas hərəkətverici qüvvələri kimi çıxış etmişdir. Bu baxımdan enerji sektoru, xüsusilə Şahdəniz qaz yatağı üzrə həyata keçirilən layihələr tərəfdaşlığın inkişafında həlledici əhəmiyyət kəsb etmişdir.

Beləliklə, XX əsrin sonlarında formalaşmış Azərbaycan–Fransa münasibətləri yalnız qısa müddətli əməkdaşlıq nümunəsi deyil, eyni zamanda uzunmüddətli strateji tərəfdaşlığın əsasını təşkil edən kompleks siyasi və iqtisadi model kimi qiymətləndirilə bilər. Bu dövrdə yaradılmış möhkəm hüquqi-institusional baza və qarşılıqlı etimada əsaslanan əməkdaşlıq mexanizmləri sonrakı illərdə əlaqələrin daha da genişlənməsi və dərinləşməsi üçün əlverişli zəmin yaratmışdır.

ƏDƏBİYYAT

1. Abdullayev Ə. Müstəqil Azərbaycan və Fransa. Bakı, "İqtisad Universiteti nəşriyyatı", 2007, 34-35 s.
2. Azerbaijan Imports from France: [Electronic resource] / Trading economics, -2022. URL: https://tradingeconomics.com/azerbaijan/imports/ france.
3. Azərbaycan Prezidenti qəbul etmişdir: [Elektron resurs] / URL: https://azertag.az/xeber/ azarbaycan_prezidenti_qabul_etmisdir – 797463. 08.06.1994.
4. Əliyev, H. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev – Bakı, "Azərnəşr", c.7, 1998, 520 s.
5. Azərbaycan tarixi: [7 cilddə]. c. 7 (1941-2002-ci illər). Bakı, "Elm", 2008, 608 s.
6. France Imports from Azerbaijan: [Electronic resource] / Trading economics, 2022. URL: https://tradingeconomics.com/france/imports/ azerbaijan.
7. Hüseynova S. Müasir beynəlxalq münasibətlərdə ticarət-iqtisadi əməkdaşlıq məsələləri. Bakı, //AMEA-nın Xəbərləri. İqtisadiyyat Seriyası//, 2015, (3), s.87-93
8. Xarici siyasət fəaliyyətinin xronikası 1997-ci il: [Elektron resurs] / URL: https://files. preslib.az/projects/toplu/v2/f4_5.pdf.
9. Qasımlı M.C. Azərbaycanın xarici siyasəti (1991-2003): [2 cilddə], Bakı, "Mütərcim", c. 1, 2015, 648 s.; c. 2, 2015, 664 s.
10. Qasımov M.C. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri) Bakı, "Mütərcim", 1997, 124 s.

УДК 94

*Салима Сабир кызы Гулиева*
*Бакинский Государственный Университет*

# РАЗВИТИЕ ТОРГОВО-ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ФРАНЦИЕЙ (1991–2001)

## *РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, Франция, дипломатические отношения, торгово-экономическое сотрудничество, Гейдар Алиев, Шахдениз, внешняя политика, инвестиции

В статье анализируются этапы становления и развития двусторонних отношений между Азербайджаном и Францией после восстановления государственной независимости Азербайджана в конце XX века. Особое внимание уделяется периоду 1991–2001 годов, который стал определяющим в формировании азербайджано-французского партнерства.

В работе рассматривается процесс установления дипломатических отношений, первые официальные контакты, взаимные визиты на высшем и высоком уровнях, а также инициативы в сфере промышленного, торгово-экономического и инвестиционного сотрудничества. Значительное место отводится анализу интереса французских компаний к азербайджанскому рынку, особенно в нефтегазовом секторе. Автор подчеркивает роль соглашений, подписанных в энергетической сфере, среди которых особое значение имели контракты с французскими компаниями Total и Elf Aquitaine.

В результате проведенного исследования установлено, что азербайджано-французские отношения формировались под комплексным влиянием исторических, геополитических и экономических факторов. Если в начале 1990-х годов сотрудничество носило преимущественно политический и дипломатический характер, то с середины 1990-х годов оно вступило в качественно новый этап — этап интенсивного экономического и инвестиционного взаимодействия.

В статье также анализируется динамика роста товарооборота между двумя странами на основе статистических данных. Показано, что после подписания «Контракта века» и начала реализации крупных нефтегазовых проектов объем двусторонней торговли значительно увеличился, а французские инвестиции стали играть важную роль в развитии азербайджанской экономики.

Особое внимание уделяется тому, что сотрудничество не ограничивалось энергетическим сектором, но постепенно расширилось на такие сферы, как транспорт, сельское хозяйство, образование, культура и гуманитарные связи. Автор приходит к выводу, что азербайджано-французские отношения за относительно короткий исторический период (1991–2001 гг.) прошли путь от начальной стадии установления контактов до стратегического партнерства, основанного на взаимных интересах и взаимовыгодном сотрудничестве.

UDC 94

*Salima Sabir Guliyeva*
*Baku State University*

THE DEVELOPMENT OF TRADE AND ECONOMIC COOPERATION BETWEEN AZERBAIJAN AND FRANCE (1991–2001)

*SUMMARY*

*Keywords:* Azerbaijan, France, diplomatic relations, trade and economic cooperation, Heydar Aliyev, Shah Deniz, foreign policy, investment

This article provides a comprehensive analysis of the formation and development of relations between the Republic of Azerbaijan and France following the restoration of Azerbaijan's state independence at the end of the twentieth century, a process closely linked to the dissolution of the Soviet Union. The study situates bilateral relations within the broader context of post-Soviet geopolitical transformation, emphasizing Azerbaijan's efforts to integrate into the international system as a sovereign actor and to establish diversified partnerships with leading European states.

Particular attention is devoted to the period of 1991–2001, which is characterized as a foundational decade in the institutionalization of Azerbaijani–French relations. During this time, key developments included the formal establishment of diplomatic relations, the opening of embassies, and a series of high-level reciprocal visits that contributed to the consolidation of political dialogue. The role of political leadership, especially that of Heydar Aliyev, is examined in shaping a pragmatic foreign policy aimed at attracting foreign investment and fostering strategic cooperation with Western partners, including France.

The article further explores initiatives in industrial and trade cooperation, highlighting the growing interest of French companies in the Azerbaijani market. This interest was driven by Azerbaijan's favourable investment climate, ongoing economic reforms, and its strategic location as a bridge between Europe and Asia. Special emphasis is placed on the energy sector, where cooperation reached a strategic level. Agreements involving major projects such as the development of the Shah Deniz gas field are analyzed as pivotal milestones that not only enhanced bilateral economic ties but also positioned Azerbaijan as a key contributor to European energy security.

In addition, the study evaluates the role of institutional mechanisms—such as bilateral agreements, intergovernmental commissions, and business platforms—in facilitating sustained economic interaction. The expansion of trade turnover is examined through statistical data, revealing a steady upward trend in both exports and imports throughout the late 1990s and early 2000s. This growth is interpreted as an indicator of increasing economic interdependence and the effectiveness of policies aimed at liberalizing trade and encouraging foreign participation in the national economy.

The findings of the research suggest that Azerbaijani–French relations were shaped by a combination of historical legacy, geopolitical considerations, and mutual economic interests. From the mid-1990s onward, these relations entered a qualitatively new stage marked by strategic partnership, particularly in the energy domain. The article concludes that the period under review laid a solid political, legal, and economic foundation for the further expansion and deepening of bilateral cooperation in the twenty-first century.

***Daxil oldu: 24.06.2026-cı il***